# Daha 16 ailə Şuşaya qayıtdı





**Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşa dünən növbəti köç karvanını qarşıladı. Bu mərhələdə şəhərə respublikamızın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış 16 ailə - 60 nəfər geri dönüb. Bununla da Şuşada 220 ailənin, yəni 823 nəfərin daimi məskunlaşması təmin edilib.**

Qarabağ və Şərqi Zəngəzur indi nəhəng tikinti meydanını xatırladır. Füzulidən Kəlbəcərə, Zəngilandan Suqovuşana kimi böyük bir ərazi dövlətimizin öz imkanları, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti ilə yenidən qurulur, bərpa edilir. Düşmənin 30 ilə yaxın davam edən işğal dövründə daşı daş üstə qoymadığı doğma yurd yerlərimizə yeni həyat verilir, şəhər və kəndlərimizdə yenidən həyat qaynamağa başlayır. Bütün bunlar Azərbaycanın Vətən müharibəsində və antiterror əməliyyatlarındakı zəfərlərinin quruculuq meydanındakı davamıdır. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda aparılan kompleks bərpa və yenidənqurma işləri Prezident İlham Əliyevin azad edilmiş əraziləri ən müasir standartlar səviyyəsində bərpa etmək əzminin, dövlətimizin iqtisadi gücünün təcəssümüdür.

Qarabağın quruculuğunun və Böyük qayıdışın ünvanlarından biri də Şuşadır. Şuşa xalqımızın elə bir mənəvi xəzinəsidir ki, işğal dövründə düşmən nə qədər cəhdlər göstərsə də, bu şəhərin qəddini əyə bilməyib. İşğalçılar nə qədər çalışsalar da, şəhərin tarixi simasını dəyişə, onu erməniləşdirə bilməyiblər. Şuşanın keçmişini silmək üçün düşmənin bütün cəhdləri uğursuz alınıb. Buna görə ermənilər Şuşada insanlığa ləkə gətirən vandallıq ediblər, şəhərin xalqımızın keçmişini özündə əks etdirən tarixi binalarını, mədəniyyət abidələrini, məscidlərini dağıdıblar.

Qala şəhərimizdə 4 ilə yaxın dövrdə aparılan bərpa və quruculuq işlərinin miqyası olduqca möhtəşəmdir. Şəhər kompleks bərpa edilir. Həm yeni infrastrukturlar yaradılır, həm tarixi binalar və mədəniyyət abidələri bərpa edilir, həm də yaşayış kompleksləri salınır. Bir sözlə, Şuşa tarixi şöhrətini özünə qaytarır.

Bu ilin may ayından isə şuşalılar doğma şəhərlərində yaşamağa başlayıblar. Mayın 10-da Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak ediblər və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər. Həmin vaxtdan etibarən şuşalıların mərhələli şəkildə doğma şəhərə qayıdışı başlayıb.

Dünən doğma yurda qayıdan Şuşa şəhəri sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək 2163 ailə - 8330 nəfər əzəli yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 220 ailə (823 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində, 36 ailə (117 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 oktyabr (№ 221).- S.9